# *MƏKTƏBƏQƏDƏR VƏ İBTİDAİ TƏHSİL*

UOT 372.3/.4

***Lalə Adil qızı Əliyeva,***
*"Odlar yurdu" Universitetinin baş müəllimi,*
*psixologiya üzrə fəlsəfə doktoru*

## MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA İNTİZAMIN VƏ DAVRANIŞ MƏDƏNİYYƏTİNİN TƏRBİYƏ OLUNMASI

***Лала Адиль гызы Алиева,***
*доктор философии по психологии*
*старший преподаватель университета «Одлар юрду»*

## ВОСПИТАНИЕ ДСЦИПЛИНЫ И КУЛЬТУРЫ ПОВЕДЕНИЯ ДОШКОЛЬНИКОВ

***Lala Adil Aliyeva,***
*doctor of philosophy in psychology*
*senior lecturer at 'Odlar Yurdu' University*

## UPBRİNGİNG DİSCİPLİNE AND CULTURE OF BEHAVİOR İN PRESCHOOLERS

**Xülasə**. Uşağın mənəvi inkişafında istiqamətlərdən biri intizamın və davranış mədəniyyətinin tərbiyə olunmasıdır. Uşaq bağçasında məktəbəqədər yaşlılara birgə və dostcasına oyun oynamağı, əməklə məşğul olmaq, bir-birinə havadar olmaq, ümumi işdə iştirakda cavabdehlik, qarşılıqlı yardım göstərmək, intizamlı olmaq aşılanır. Davranış mədəniyyəti mənəvi hiss və təsəvvürlərlə sıx surətdə bağlıdır.
***Açar sözlər:*** *məktəbəqədər yaş, məktəbəqədər yaşlı uşaqlar, intizam, davranış, davranış mədəniyyəti, davranış mədəniyyətinin tərbiyə olunması*

**Резюме**. Одним из направлений в нравственном развитии ребенка является воспитание дисциплины и культуры поведения. В детском саду дошкольникам прививают умение совместно и дружно играть и трудиться, проявлять сочувствие друг другу, ответственность за участие в общем деле, оказывать взаимную помощь, быть дисциплинированным. Культура поведения тесно связана с нравственными чувствами и представлениями.
***Ключевые слова****: дошкольный, дошкольник, дисциплина, поведение, культура поведения, воспитание культуры поведения*

**Summary**. One of the directions in the moral development of the child is the education of discipline and culture of behavior. In the kindergarten, pupils are taught the ability to play and work together and play together, show sympathy for each other, take responsibility for participating in a common cause, provide mutual assistance, and be disciplined. The culture of behavior is closely related to moral feelings and ideas.
***Keywords:*** *preschool, preschooler, discipline, behavior, culture of behavior, upbringing of a culture of behavior*

Tərbiyənin tərkib hissələri arasında əxlaq tərbiyəsinin özünəməxsus yeri vardır. Əxlaq tərbiyəsi insanda, o cümlədən məktəbəqədər yaşlı uşaqlarda əxlaqi şüurun, əxlaqi hisslərin, əxlaqi təfəkkürün, əxlaqi adətlərin, və nümunəvi davranışın formalaşdırılmasını və inkişaf etdirilməsini nəzərdə tutur.

Məktəbəqədər yaş dövründən balacalara bir sıra hisslər aşılanır. Həmin hisslərə aiddir: ata-anaya, bacı-qardaşa, bana-nənəyə, xala-bibiyə, əmi-dayıya və başqa qohumlara, ümumiyyətlə böyüklərə və yaşlı insanlara məhəbbət, Vətənə, yurda, ailəyə, ölkəyə, qəhrəmanlara sevgi, dostluq və yoldaşlıq hissləri tərbiyə edilir.

Bu hisslərin getdikcə daha da qüvvətləndirilməsi qayğısına qalınır.

Doğrudur, 2-3 yaşlı uşaqlarda insanlara və ətraf aləmə münasibəti və hissiyyatı çox da möhkəm deyil. Bu yaşlarda müsbət münasibət bəzən birdən-birə mənfi hərəkətlərlə əvəz olunur. Bir də görürsən ki, uşaq öz yoldaşları ilə həvəslə oynayır, öz oyuncaqları ilə onların oynamasına razılıq verir, ancaq həmyaşıdının oyuncağından xoşu gəldiyindən ondan oyuncağı nəzakətlə istəyib almır, uşağı itələyib, onu götürərək qaçır.

Başasalma, izah, dilətutma sayəsində məktəbəqədər yaşlıların əxlaqi hissləri, hərəkətləri get-gedə cilalanır. 4 yaşlarında onlar bir-biri ilə daha mehriban və səmimi olurlar.

5 yaşlarında onlar oyun yoldaşlarının, digər şəxslərin istək və arzularını dərk etməyə başlayır, bu adamların nəyi xoşladıqlarını, nəyi xoşlamadıqlarını artıq anlayırlar. Öz hisslərini idarə etməyə. Onları öz şüurlarına tabe etməyə cəhd göstərirlər. Fəqət bütün bunlarla yanaşı, məktəbəqədər yaş dövründə uşaqların hissləri səmimi və qeyri-səmimi olur. Getdikcə onlarda yaşıdlarının və böyüklərin hiss və həyəcanlarını başa düşmək bacarığının tərbiyə olunması qayğısına qalmaq lazımdır.

Əxlaq tərbiyəsinin mühüm vəzifələrindən biri məktəbəqədər yaşlı uşaqlarda intizamın və davranış mədəniyyətinin formalaşdırılmasıdır. Sinir sisteminin son dərəcə elastikliyi nəticəsində uşaq böyük həssaslığına görə diqqət mərkəzinə gəlir. Məktəbəqədər yaşda uşağın mühakimələri və həyat hadisələrinə münasibəti əsas etibarilə valideyn və tərbiyəçilərin mühakimələri və davranışı əsasında meydana gəlir. ətraf mühitdə baş verən hadisələrin əxlaqi tərəfinin uşaq tərəfindən başa düşülməsi onun ata-anasına, ailənin digər yaşlı üzvlərinə suallarında öz əksini tapır.

Valideynlər, tərbiyəçilər, ailənin başqa yaşlı üzvləri məktəbəqədər yaşlılardan ötrü başa düşülən, aydın bir dildə aydınlaşdırırlar ki, yaxşı nədir, pis nədir, nəyə icazə verilir, nəyə icazə verilmir, nə yaxşı hərəkətdir, nə xoşa gəlməyən hərəkət.

Məktəbəqədər yaşlılarda ilkin əxlaqi hisslər ailə ocağında onu əhatə edən sevgi və qayğıya cavab olaraq toplanır. Uşaqda intizam və mədəni davranış vərdişlərinin tərbiyə olunması istiqamətində tərbiyəvi işlərə başlanılır.

Gəlin görək "*intizam*" nədir ki, uşaqlar intizamlı olmalıdırlar. "Azərbaycan dilinin izahlı lüğəti"nə oxuyuruq: "İntizam -1. Nizam və qayda, səliqə, tərtib. 2. Hər hansı bir kollektivin bütün üzvlərinin tabe olması məcburi olan möhkəm qayda, qanun, nizam" (1, s. 561).

Bəs *"intizamlı"* dedikdə nə başa düşülməlidir? Diqqət yetirək: "İntizamlı – 1. İntizama ciddi surətdə riayət edən, qayda və qanuna əməl edən" (1, s. 562). İndi isə "*intizamlılıq"* və "*intizamsızlıq*" anlayışlarının mahiyyətinə nəzər yetirək: "İntizamlılıq – 1. İntizamlı olma, nizam və intizamı gözləmə" (1, s. 562);

"İntizamsızlıq – 1. İntizama, qayda-qanuna riayət etməyən. 2. Qayda-qanunsuz, nizamsız" (1, s. 562).

Mənbələrdə deyilir: "İntizamlılıq – şəxsin qəbul edilmiş qayda və qanunlara əməl etməsi ilə xarakterizə olunan keyfiyyətdir. İnsanın fəaliyyət və ünsiyyət prosesində, mövcud sosial normalara, etalonlara və s. hörmətlə yanaşması, şəxsin intizamlı olmasını bildirir" (2) .

"Davranış mədəniyyəti, elmi bir termin olaraq, insanın mənəvi və əxlaqi prinsiplərinin ifadə olunduğu bütün davranış formalarının məcmusunu ifadə edir. Bu konsepsiya insanın daxili və xarici mədəniyyətinin bütün sahələrini əhatə edir: ictimai yerlərdə davranış, etiket, gündəlik həyat, digər insanlarla münasibətlər, maraqların və ehtiyacların təbiəti, gigiyena, fərdi vaxtın təşkili, estetik zövqlər, mimika, üz ifadələri və nitq mədəniyyəti. Fərdin davranış mədəniyyəti onun mənəvi, estetik və mənəvi görünüşünü xarakterizə edir. Bu bir insanın yaşadığı cəmiyyətin dəyərlərini nə qədər əldə etdiyini və qəbul etdiyini və onlardan məharətlə istifadə etdiyini göstərir. Hər birimiz davranış qaydalarına riayət etmək, öz mədəniyyətimiz və bizi əvəz edəcəklər üçün bir məsuliyyət daşıyırıq" (4).

Məktəbəqədər yaşlı uşağın intizamlılığı dedikdə, ailədə ata-ananın, ailənin digər yaşlı üzvlərinin, uşaq bağçasında tərbiyəçinin verdiyi tələb və tapşırıqların omun tərəfindən yerinə yetirilməsi bacarığı, getdikcə həmin tələblərə tədrisi şüurlu münasibəti, onların vacibliyini anlaması, nümunəvi davranmaq qaydalarına və rəftar tərzinə alışması anlaşılır.

Məktəbəqədər yaşda balacaların özlərinə xas intizamlılığı bunda öz əksini tapır ki, qeyd olunan cəhətlər başlanğıc formalaşma pilləsində olaraq, nisbətən kiçik yeniyetmə yaşlı uşaqların intizamlılığından qeyri-sabitliyi ilə, lazımı sə-

viyyədə tam və dəqiq olmaması ilə seçilir. Bütün bunlar onun təcrübəsizliyindən, ona verilən tələbləri mahiyyətini hələ lazımınca anlamamasından irəli gəlir. Həmin yaşda intizamlılığın tərbiyə edilməsində mühüm rola malik olan ləngimə prosesi də zəif inkişaf etmiş olur. Aydınlaşır ki, intizam vərdişi çox da tərbiyə olunmayıb.

İndi isə "*davranış*" termininin mahiyyətinə varaq. Yenə "Azərbaycan dilinin izahlı lüğəti"nə müraciət edək: "Davranış – davranma tərzi, hərəkət, rəftar" (3, s. 552) mənasını verir.

*Mədəni davranış* geniş anlayışdır. Məktəbəqədər yaşlı uşaqların davranışının mədəniyyəti nəzakətlilikdə, həmyaşıdlarının mənafeyi ilə hesablaşmaq bacarığında, əşya və hadisələrə, oyuncaqlara, kitablara, gəlinciklərə ehtiyatlı münasibətdə, mədəni ünsiyyət və nitqdə, mədəni rəftar tərzində öz ifadəsini tapır.

Məktəbəqədər yaşlı uşağın nümunəvi davranışa yiyələnməsində valideyn və tərbiyəçinin şəxsi nümunəsi əvəzsiz rol oynayır.

Uşaqlara intizamlılığın aşılanmasında davranış normalarının və qaydalarının əhəmiyyəti də böyükdür. Aparılmış məqsədyönlü, sistemli və fasiləsiz iş nəticəsində məktəbəqədər yaşlılar haqqında danışılan qayda və normaları getdikcə mənimsəyir, faydalılığını anlayırlar. Nəticədə böyüklərə hörmət edir, onların tələblərinin düzgünlüyünə əmin olur, ata-ananın sözünə qulaq asırlar.

Məktəbəqədər yaşlı uşaqlara etik və davranış qaydalarını öyrətməkdə bir sıra müxtəlif üsullardan istifadə olunur. Onlara müvafiq qaydaların aydınlaşdırılması, tərbiyəçinin və həmyaşıdlarının müsbət nümunəsi, valideyn və tərbiyəçinin nəzarəti və köməyi, rəğbətləndirmə və cəzalandırma, başasalma, dilətutma, məzəmmət, danlaq və s aiddir.

Valideynlər və tərbiyəçilər uşağa nəyi necə etməyi başa salmalıdırlar. Davranış qaydaları onların balacalar tərəfindən müstəqil və şüurlu şəkildə icrası dərəcəsinə görə get-gedə mürəkkəbləşir. Uşaq bağçasında orta və böyül qruplarda intizam və davranış normaları bir qədər çətinləşir, kollektivdə uşaqların davranış və rəftarına nisbətən daha çox tələblər verilir. Həmin qayda və normalar məktəbəqədər yaşlıların ailədə, küçədə, uşaq bağçasında davranışını təşkil etməyə kömək göstərir.

Məktəbəqədər yaşlı uşaqlar ata-anaları, tərbiyəçilər tərəfindən qoyulmuş qaydaları onların köməyi ilə yerinə yetirirlər. Əl-üzünü yumağı, oynayın qurtarandan sonra , paltarlarını, ayaqqabısını geyinib-çıxarmağı, ayaqqabısını dolabda yerləşdirməyi, paltarını şkafdan asmağı öyrənir və s. oyuncaqları yığışdırmağı

Məktəbəqədər yaşlı uşaqları intizamlı, mütəşəkkil davranım təcrübəsinə yiyələndirməkdən ötrü onların əməkdə iştirakına nail olmaq, balacalara gücləri çatan əmək tapşırıqları vermək lazımdır. Onlarla uşaq bağçasında düzgün təşkil olunan məşğələlər intizamın və mütəşəkkilliyin tərbiyəsindən ötrü vacibdir. Prof. A.M. Həsənov yazırdı: "Məktəbəqədər yaş dövründə uşaqlarda ədəb-ərkan qaydalarını, davranış mədəniyyətini sistemli, müntəzəm və məqsədyönlü aparmaq lazımdır ki, özül möhkəm olsun" (5, s. 215)

Daha bir cəhət. İntizamlılığın formalaşdırılmasında zəruri şərt - ailədə ata-ananın, uşaq bağçasında tərbiyəçinin nüfuzunun onlar tərəfindən qəbul olunmasıdır.

**Problemin aktuallığı**. Məktəbəqədər yaşlı uşaqlarda intizamın və davranış mədəniyyətinin tərbiyə olunması aktuallığı ilə fərqlənir.

**Problemin yeniliyi**. Məktəbəqədər yaşlı uşaqlarda intizamın və davranış mədəniyyətinin tərbiyə olunması kimi mühüm məsələyə diqqət yetirilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə gənc tədqiqatçılar, xüsusən doktorant və dissertantlar, magistrantlar üçün faydalı olacaqdır.

**Ədəbiyyat:**

1. Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə. 2-ci cild. Bakı: Şərq-Qərb, 2006.
2. Ailə psixoloqu https://www.facebook.com/172877086075459/posts/963322497030910/
3. Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə. 1-ci cild. Bakı: Şərq-Qərb, 2006.
4. İnsan. Davranış mədəniyyəti. https://az.hydroponicsbc.com/5957-human-behavior-culture.html
5. A.M. Həsənov. Məktəbəqədər pedaqogika. Bakı: Nasir, 2000.

**E-mail**: shabnam.edu@gmail.com

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **A.N. Abbasov**
*ped.ü.fəls.dok.* **L.A. Məmmədli**

**Redaksiyaya daxil olub**: 15.01.2021